Yıl/Year:2024, Cilt/Volume:3, Sayı/Issue:1

ORIGINAL ARTICLE
ORİJİNAL ARAŞTIRMA

# RÜSTEM BEHRUDİ YARADICILIĞINDA TÜRKÇÜLÜK İDEYALARI

# THE IDEAS OF TURKISM IN THE WORKS OF RUSTEM BEHRUDI

Zaman ABBASLI
ORCID: 0009-0006-0354-1218

DOI: 10.5281/zenodo.12594511

## ÖZET

Rüstəm Behrudi (Rüstəm Hidayət oğlu Almәmmədov) 1957-ci ildə Naxçıvan Muxtar Respublikasının Ordubad şəhərinin Behrud kəndində anadan olub. Doqquz qardaşın ən böyüyü olan Behrudi ibtidai təhsilini yaşadığı kənddə almışdır. Rüstəm Behrudi Azərbaycan ədəbiyyatının ən mühüm yaşayan şairlərindən biridir. Şair təkcə Azərbaycanda deyil, bütün Türk dünyasında şeirləri ilə tanınır. Rüstəm Behrudinin Azərbaycanın istiqlal hərəkatları zamanı söylədiyi şeirlər cəmiyyətin hiss və düşüncələrini ifadə etmiş və sənətkarı Azərbaycan xalqı arasında sevdirmişdir. Rüstəm Behrudinin əsərlərinin ən əsas xüsusiyyəti dilin aydın, sadə, səmimi və anlaşılan olmasıdır. Behrudi əsərlərində istifadə etdiyi bu aydınlıq və başa düşülənin iki əsas səbəbi var. Biri onun Azərbaycan Türkcəsindən aydın şəkildə istifadə etməsi, ikincisi isə məşğul olduğu mövzuların bütün Türk dünyası tərəfindən asanlıqla başa düşülməsidir. Bir sözlə, şeirlərində hər kəsin anlaya biləcəyi dilə üstünlük verib. Rüstəm Behrudi Türk dünyasında şeirləri ilə tanınan bir addır. Onun poeziyasında Türklük, Türk dastanları, önəmli Türk böyükləri, Turançılıq, Türk dövlətlərinin halları və s. əsas məsələlər olmuşdur. Rüstəm Behrudinin şeirinde yer alan əsas hiss vətən və millət sevgisidir. Rüstəm Behrudi dövrünün hadisələri, ictimai-əxlaqi problemlər qarşısında səssiz qalmır və bunları şeirlərində dilə gətirir. Onun şeirlərində milli mənsubiyyət, vətənpərvərlik, tarixi mənbələr, əsrlər boyu Türklərin və Azərbaycanın tarixindəki rolu kimi mövzular əsas rol oynayır. Şair bu hissləri mənim üçün "Turan və məmləkət sevgisindən böyük heç nə yoxdu bu yer üzündə " deməklə ifadə edir. Rüstəm Behrudi bir çox şeirlərinin mövzusuna Turanı daxil etmişdir. Rüstəm Behrudi bilir ki, Turan idealına yalnız mübariz ruhla nail olmaq olmaz, Turana çatmaq üçün güclü mədəniyyət, güclü iqtisadiyyat və kültür bazası lazımdır. Bu vəziyyət onun şeirlərində əski Türk adət-ənənələrinin bu qədər hakim olmasına şərait yaratmışdır. Rüstəm Behrudi Türklərin bir birlik içində olmadığını da bir çox şeirində dilə gətirmişdir. Onun sözlərinə görə, Turanın qarşısında ən böyük maneə öz aralarında olan ayrılıqlardır. Gənc yaşlarından qələm tutan Rüstəm Behrudi, 1980-ci ilə qədər "Ulduz" və "Azərbaycan" jurnallarında, "Ədəbiyyat" və "İncəsənət" qəzetlərində çap etdirilən şeirləri onu qlobal platformada məşhurlaşdırmışdır.

**Anahtar Kelimeler:** Rüstəm Behrudi, Türkçülük, Vətən

## ABSTRACT

Rustam Behrudi (son of Rustam Hidayat oglu Almammadov) was born in 1957 in Behrud village of Ordubad city of Nakhchivan Autonomous Republic. The eldest of nine brothers, Behrudi received his primary education in the village where he lived. Rustam Behrudi is one of the most important living poets of Azerbaijani literature. The poet is known for his poems not only in Azerbaijan, but throughout the Turkic world. Rustam Behrudi's poems during the independence movements of Azerbaijan expressed the feelings and thoughts of the society and endeared the artist to the people of Azerbaijan. The main feature of Rustam Behrudi's works is clear, simple, sincere and understandable language. There are two main reasons for this clarity and comprehensibility used by Behrudi in his works. One is that he clearly uses Azerbaijani Turkish, and the second is that the topics he deals with are easily understood by the entire Turkic world. In short, in his poems, he preferred the language that everyone can understand. Rustam Behrudi is a name known in the Turkish world for his poems. In his poetry, Turkishness, Turkish epics, important Turkish figures, Turanism, the state of Turkish states, etc. were the main issues. The main feeling in Rustam Behrudi's poem is the love of country and nation. Rustam Behrudi does not remain silent in the face of social and moral problems and expresses them in his poems. Themes such as nationality, patriotism, historical sources, the role of Turks and Azerbaijan in the history of centuries play a major role in his poems. The poet expresses these feelings by saying, "For me, there is nothing greater than the love of Turan and the country." Rustam Behrudi included Turan in many of his poems. Rustam Behrudi knows that the ideal of Turan cannot be achieved only with a fighting spirit. To reach Turan, you need a strong cultural base. This situation made it possible for the old Turkish traditions to be so dominant in his poems. Rustam Behrudi expressed in many of his poems that the Turks are not united. According to him, the biggest obstacle for Turan is the differences between themselves. Rustam Behrudi, who has been writing since his youth, his poems published in "Ulduz" and "Azerbaijan" magazines, "Literature" and "Incesanat" newspapers until 1980 made him famous on the global platform.

**Keywords:** Rustam Behrudi, Turkism, Homeland

İlgili Yazar: Zaman ABBASLI
Azərbaycan Milli ElmlərAkademiyası Naxçıvan Bölməsi, Araştırma Görevlisi
abbaslizaman7@gmail.com

Başvuru Tarihi/Received: 24.05.2024
Kabul Tarihi/Accepted: 18.06.2024

**Giriş**

1980-ci illərdə Azərbaycanın azadlıq və istiqlal mübarizəsinin qanlı müharibələri davam edir. Məhz bu məqamda Türk şüurunu məhv etmək, unutdurmaq üçün cəhdlər edilirdi. Şair və yazıçılar həbs edilir, öldürülür ya da işgəncəyə məruz qalırdılar. Təəssüf ki, Sovetin bu siyasətindən təsirlənən Azərbaycan şairlərindən biri də Rüstəm Behrudidir.

Rüsrəm Behrudi heç vaxt sıradan bir şair olmamışdır. O, misralarında səsləndirdiyi Türklük, azadlıq, istiqlal, vətən ünsürlərini dərk etmək üçün meydanlarda xalqla çiyin-çiyinə mübarizə aparmışdır. O, xalq şairi olmaqla yanaşı, həm də 80-ci illərdə Azərbaycanda istiqlal mübarizəsinə başlayan qabaqcıl insanlardan biridir. Behrudi əvvəlcə şeirləri, sonra isə ideyası və cəsarəti ilə xalqının məhəbbətini qazanmışdır. Ona görə də o, təkcə şair kimi deyil, həm də böyük mütəfəkkir kimi tanınır.

Rüstəm Behrudinin şeirinde yer alan əsas hiss vətən və millət sevgisidir. Onun şeirlərində milli mənsubiyyət, vətənpərvərlik, tarixi mənbələr, əsrlər boyu Türklərin və Azərbaycanın tarixindəki rolu kimi mövzular əsas rol oynayır. Şair bu hissləri "Mənim üçün Turan və Məmləkət sevgisindən böyük həç nə yoxdu bu yer üzündə" deməklə ifadə edir. (Kökden, 2019, s.190). Rüstəm Behrudi otuz yaşını belə təsvir edir: Otuz yaşımda "*ölüm xoş gəldin*" dedim. Gənç yaşımdan sonra bir mələkdən üz döndərib, "*Tanrı mı göndərdi, özün mü gəldin*" adlı şeirimi yazdım. Otuz iki yaşımda "Salam, *dar ağacı*"na salam verdim. 1990-cı ilin martında həbsdə oldum. "Mən Türkün böyüklüyünə ağlımda qalan müddət ərzində aşiq olmuşam". R.Behrudi ilk dəfə 1986-cı ildə "Yaddaşlara yazın" adlı şeir kitabını nəşr etdirib (Əliyeva, 2019, s.24).

Rüstəm Behrudinin "Yaddaşlara yazın" kitabında eşqdən, təbiətdən, elmdən və başqa predmetlərdən danışılsa da, Vətən məzmunu bu kitabı daha diqqət çəkən edir. Rüstəm Behrudinin fikrincə vətən nədir? Vətən; Zəngəzurdu, Kərkükdü, Göyçədi, Qarayazıdı, Füzulinin məzarıdı vətən, Araz çayının dərdidir vətən!. Əsaslı düşüncənin 8 arxasında vətəndən tək yaşamaq ideyası yox, onun kədərini, dərdini şadlığa çevirmək, hətta uğrunda şəhidlik zirvəsi dayanır. R.Behrudi "Vətən" sözünü çox ifadə edir ama bu şərəfli mövzunu hörmətdən salmır, onun gerisində durmur. "Yaddaşlara yazın bunu" şeirində belə ifadə edilir ki, vətənin mövcudluğunu "hərə bir cür dərk eləyir". Həmin şeiri elə bil bütöv Azərbaycan xalqının hisslərinə tərcüman olaraq qələmə almışdır. "Yaddaşlara yazın bunu" şeirində Behrudi "Vətən" sözünü qalxan edib min-bir hiyləyə əl atanları,

vətənin büllur adına sığınıb murdar işlərə qarışanları ifşa edir

[1.] Rüstəm Behrudi o mənfi xarekterləri də məharətlə ictimailəşdirir: (Əliyeva, 2019, s.24).

O adama nəyə gərək Vətən nədir;
Beləsinin dilini al, elini al,
Komasına əl vurmasan,
Bilməyəcək nəyi gedir, nəyi qalır, itən nədir.

Rüstəm Behrudi bir müddət sonra "Tənhalıqda ölüm qorxusu yoxdu", "Yeddi rəng bir rəngli daha", "Bitəcək hər şey bitməlidir", "İblis mələkdən gözəldir", "Yer üzü görüş yeridir", "Qanlı kölgə", "Bir dəli ayrılıq kimi", "Görən niyə susub adamlar Allah", "Ruhu sözlərimdə çırpınan ölkə", "Salam dar ağacı" adlı şeir kitablarını nəşr etdirdi. (Atsız və Muradov, 2016, s.279).

Şair Türk dünyasında tanınan sənətkarlarımızdan biridir. Ahmet B. Ercilasun Rüstəm Behrudini "Rüstəm Behrudi zamanın üstündə yaşayan bir şairdir" kimi təsvir etmişdir (Behrudi, 2010, s.9).

Tofiq Hacıyev "Turan Ruhu Sözlərimdə Çırpınan Ölkə" adlı kitabında şairin Türk tarixi baxımından əhəmiyyətini, "Dədə Qorqut kitabından sonra, heç bir kəsdə qədim tariximiz Rüstəm Bəhrudidə olduğu qədər bu dərinlikdə bədiilik predmetinə çevrilməyibdir." Yavuz Akpınar Rüstəm Behrudini çağdaş Azərbaycan poeziyasının yükünü böyük ölçüdə paylaşan, yetkinlik dövründə əsərlər yaradan şairlər sırasında sadalayır. Yavuz Akpınar 1980-ci illərdə Azərbaycan poeziyasının vəziyyətini izah edərkən dövrün gənc şairlərindən misallar çəkmişdir. Bu nümunələrdən biri də Rüstəm Behrudidir. Şeirlərinə nəzər saldıqda Rüstəm Behrudinin şeirlərinin ilham mənbəyi kimi mifologiyanı və qədim Türk həyatını gördüyü başa düşmək heçdə çətin deyil. (Yavuz, 1994, s.169). Rüstəm Behrudi haqqında sənədli film də var. "Uzaqların Adamı" adlı bu sənədli film 2012-ci ildə işıq üzü görmüş və orada şair öz şeirlərini oxumuşdur[1].

**Gelişme**

Akademik İsa Həbibbəyli qeyd edib ki; Rüstəm Behrudi üçün söz təkcə ədəbiyyat hazırlamaq deyil, onun yaradıcılığı şeirlərdən baxılan avtobioqrafiyasıdır. O, 1980-ci illərdə, "bakirə bir söz dəlisi" olan özünə güvənən gənc bir şair kimi sahədə idi. Tələbəlik vaxtlarında şeirlər yazsa da, içindəki istəyi illərlə tutmuş, axırda, önü alınmaz bir gücə çevrildikdən sonra, 80-ci ilin ikinci

---

[1] Aynurə Əliyeva. (2019). "Şaman nəvəsi – Rüstəm Behrudi". Türküstan. Giriş Tarixi: 14.05.2024. https://senet.az/bloq/saman-nevesi-rustem-behrudi-5563

[1] Igbal Mammadaliyev. ( 2016). Uzaqların Adamı - Rüstəm Behrudi (Sənədli Film). Giriş Tarixi: 18.05.2024. https://www.youtube.com/watch?v=FZxFYnsSlII.

yarısında şairlik iddiası ilə "sözün arxasınca" uzun bir yola çıxmışdır. Rüstəm Behrudi artıq gənç yaşlarından qələm ustasıdır. Nehrə kimi çalxalanan 1980-ci ilin son hadisələri ədəbiyyatda Rüstəm Behrudi şeirinin mühüm hərəkət verici qüvvəsinə çevrilmişdir. XX-ci əsrin sonlarının siyasiləşməmiş milli istiqlal hərəkatının şeirdə fikir yaradanların cərgəsində Rüstəm Behrudinin qeyri-adi xidməti vardır. Rüstəm Behrudinin 1989-cu ildə yazılmış "Salam, dar ağacı" şeiri müstəqillikdən öncə Azərbaycan vətəndaşlıq poeziyasının möhtəşəm müqqədiməsi idi. Bu, Azərbaycan xalqının milli istiqlal təşnəsi barəsində qabilliyətlə və zəkayla yazılmış güclü bədii nümunəsidir (Həbibbəyli, 2015, s.22-23).

Yolunu gözlədin hər səhər, axşam,
Salam, dar ağacı!
Əleyküm-salam.
Əcəllə ölməyə doğulmamışam,
Salam, dar ağacı!
Əleyküm-salam!
Eli yağmalanan, bölünən, bölən,
Çayları quruyan, gölləri ölən,
Haq-hesab çəkməyə gələn mənəm, mən,
Salam, dar ağacı! (Behrudi, 2007, s.528).

Şair, Sovet hakimiyyəti vaxtında gənc yaşlarında məşhur "Salam, dar ağacı" şeirini yazmaqla istiqlaliyyətdən demək təşvişini ədəbiyyat səhifələrindən çıxarmışdır. Ancaq, Sovethakimiyyəti illərində təzə ədəbi nəslin saf vətəndaşlıq duyğusunu daşıyan nümayəndəsi kimi yazdığı "Salam, dar ağacı" şeiri ilə Rüstəm Behrudi müstəqillik uğrunda mübarizədən çəkinmədən və səbatla söyləməyin mümkün olacağını sübut etmişdir.

Dədə Qorqud dastanı, Rüstəm Behrudinin poeziyasının əsas qaynaqlarından biridir. Rüstəm Behrudinin şeirlərinə baxdıqda Dədə Qorqud hekayələrinə də rast gəlirik. Bu mövzuda Prof. Dr. Bilgehan Atsız Gökdağ, "Rüstəm Behrudi: "Dədə Qorqudun izindən gedən şair" adlı məqalə də yazıb. Həmçinin, Rüstəm Behrudi haqqında Türkiyə'də iki magistratura dissertasiyası müdafiə olunubdur. Bunlardan biri Yasin Kökden tərəfindən yazılmış, *"Rüstəm Behrudi'nin Şiirlerinde Dil ve Uslup"* adlı dissertasiyadır. Digəri isə Gülzar Məmmədova'nın qələmə aldığı *"Rüstəm Behrudi'nin Şiirleri Üzerinde Dil ve Üslup"* adlı dissertasiyadır. Hər iki samballı dissertasiya YÖK (Ulusal Tez Mərkəzi) internet saytında nəşr edilmişdir. Rüstəm Behrudi haqqında Azərbaycan, Türkiyə, Belçika və başqa ölkələrdə dissertasiya, məqalə və qəzet materialları yazılıb nəşr edilmişdir.

Rüstəm Behrudinin poeziyasında Dədə Qorqud hekayələrindən başqa Türk dastanları da yer alır. *"Oğuz Xaqın dastanı", "Oğuz Xan'ın Ağısı"* adlı şeirlərində şairin Oğuz Xaqan dastanından faydalandığı, *Yaradılış Məsələsi* adlı şeirdə isə *"Yaradılış"* dastanından faydalandığı görülür. (Kökden, 2019, s.85).

Rüstəm Behrudi bilir ki, Turan idealına yalnız mübariz ruhla nail olmaq olmaz. Turana çatmaq üçün güclü mədəni baza lazımdır. Bu vəziyyət onun şeirlərində əski Türk adət-ənənələrinin bu qədər hakim olmasına şərait yaratmışdır. Rüstəm Behrudi bir çox şeirlərinin mövzusuna Turanı daxil etmişdir. Rüstəm Behrudi Türklərin bir birlik içində olmadığını da bir çox şeirində dilə gətirmişdir. Onun sözlərinə görə, Turanın qarşısında ən böyük maneə öz aralarında olan ayrılıqlardır. Bu vəziyyəti təsvir edən şeirin adından bəllidir: "*Her Şey Ayrılıqdan Başladı*". Heç nəyə baxmayaraq Rüstəm Behrudi böyük idealından əl çəkmir. Onun üçün birlik və bütövlük çox vacib keyfiyyətlərdir. Vətən şeirindən aşağıdakı misra buna sübütdur:

Mənim adım "Ya bütövlük, ya qandı"
Zalım dostlar qəbul edin bu andı,
Qara başım bu yol üstə qurbandı. (Behrudi, 2007, s.52).

R.Behrudi şeirləri ilə Türk tarixindəki ən qüdrətli keçmişi də, ən böyük səhvi də müdrik kimi öz oxuyucularına çatdırmış, Türk kökündən olduğunu hər zaman vurğulamışdır. O, millətiüçün gələcəyə işıq tutan şairlərdəndir[2]. Əsas odur ki, şair Sovetin qadağalarından qorxmayaraq Boz qurda şeir yazmış, səsləndirib bizi Türkçülüyümüzdən xəbərdar etmişdir. Görkəmli şairin hər əsərində bir rəşadətli Türk doğulur, hər cümləsində Türkçülük yatır. Yaradıcılığının xətti-hərəkəti, özəyini Turançılıq təşkil edir. Rüstəm Behrudi; Turan deyərkən ilk öncə bu ideyanın beyinlərə hakim olmasını istəyir. "Müasir uluslararası münasibətlər Türklərə Böyük Vətənlərini yaratmağa imkan tanımır, fəqət ilk öncə Turanı düşüncələrdə, beyinlərdə qurmalıyıq. Bu ideyanı poeziyaya, nəsrə, əsərlərə, musiqiyə daşımalıyıq. Sonra əmələ keçmək olar". Əsərlərinin bir çoxunda hadisələr Türk-Turan dünyasında baş verir. Əsərlərinin əsas obrazları da bu dünyadan seçilmiş igid, mərd, cəsur Türk oğul və qızlarıdır. Turançılığın himni adlandıra biləcəyimiz "Turan" şeiri onun Türkçülüklə bağlı fikirlərini ehtiva edir. (Rəşidli, 2020, s. 35).

And olsun Tanrı dağa

---

[2] Xanım Sultanova. (2018). Mifik Obrazdan Poetik Obraza-Rüstəm Behrudi Yaradıcılığında Bozqurd. Giriş Tarixi: 17.05.2024. https://525.az/?name=xeber&news_id=104568https://525.az/?name=xeber&news_id=104568

Oda, suya, torpağa.

Turan qalxıb ayağa,

Qılınclar qına gəlməz. (Behrudi, 2007, s.256).

Rüstəm Behrudinin şeirlərində Orxan Vəli, M.Füzuli, Celil Memmedquluzade, Aşıq Veysəl Şatıroğlu, Hüseyn Nihal Atsız kimi adların təsiri görünür. Rüstəm Behrudinin "Ölüm, xoş gəldin" şeiri dramaturq, publisist və ictimai xadim Cəlil Məmmədquluzadənin hamıya məlum olan "Ölülər" tragikomediyasından, kefli İsgəndərin qəzəb nitqindən qorxub oyanmış camaatın seçdiyi siyasi və ruhi dustağından xilas olmaq yolunun igidcəsinə poetik etirafıdır. Milli azadlıq təsəvvür dalğasında ədəbiyyatda möhkəmlənmiş Rüstəm Behrudinin şeirləri yeni mərhələdə Məlikməmməd kimi işığa, irəliləyişə, milli-mədəni birlikdən etnik-coğrafi genişliyə qədərki bütün uca dəyərlərin tərəqqisinə xidmət edir. Rüstəm Behrudinin "Ata dili" şeiri ilə Cəlil Məmmədquluzadənin "Anamın kitabı" dramındakı "Atanın öz əli ilə yazdığı kitabın" milli-mənəvi bütövlük mövzusu seçilmiş predmet əsasında ayrı baxışlar ilə təkrarən dilə gətirmişdir. "Ata dili" şeirində Cəlil Məmmədquluzadənin usta qələmi ilə desək "beşikdə yad millətlərin südünü əmmiş, vətənimizdən yadırğamış və millətimizin ruhundan xəbərsiz"lərin ana dili deməyə haqqının çatmadığı qayəsi irəli sürülür. R.Behrudiyə görə, anası başqa millətlərdən olub, qeyri-milli tərbiyə alanların milli adətlərini axıradək qoruyub saxlaya, yaşada və daşıya bilməmələri insanları ciddi çətinliklərlə üzləşdirir. Cəlil Məmmədquluzadə mirasına, ideallarına və ali məqsədinə xitab, Rüstəm Behrudiyə ədəbiyyatda yüksək vətəndaş sözü deməyə də sərbəst imkan yaradır (Həbibbəyli, 2015 s. 26).

Rüstəm Behrudinin poeziyasının formal xüsusiyyətləri xalq ədəbiyyatı şeirlərinə intensiv şəkildə bənzəyir. Təhlil olunan şeirlərdə heca vəzni və dördlük mənzum forması üstünlük təşkil edir. "Yeddi Rəng Bir Rəngli Daha" kitabında araşdırılan 163 şeirdən 111-i; adlı şeir kitabında 116 şeirdən 82-si dördlük şəklində geriyə qalan şeirlər isə sərbəst üslubda yazılmışdır. Rüstəm Behrudi "Şaman Duaları" adlı kitabında Vətən və Cavidi fikirləşirkən şeirlərini üç nəzm vahidində yazmışdır. Rüstəm Behrudinin ən çox dörtlük misra vahidindən istifadə etdiyini söyləmək mümkündür. Şair dördlük nəzm vahidində yazdığı şeirlərdə heca vəznidən istifadə edir. Şeirlərin əksəriyyətində 7, 8 və 11 hecadan ibarət formalar üstünlük təşkil edir. Rüstəm Behrudi 8 və 11 hecalı formalarla müqayisədə bu heca modelindən daha az istifadə etmişdir. Bu heca sayı ilə "Ey Sərgərdən Ulduzlar" şeirini verə bilərik:

Tövbə dua qurtarmaz,

Tanrı yazan bu baxtı

Cəhənnəmin qapısı

Mənə çoxdan açıqdı.
Yazdığı yazıdı bu,
Deyin məndə nə günah?
Qapıların bəs niyə
Üzümə çırpır Allah? (Behrudi, 2007, s.402).

Behrudi bəzən Şaman olub səmalara dua oxuyur, bəzən də "bu gündən dərvişəm daha", deyərək çöllərə düşür, gah öz avazıyla Türkləri "qurd üzünə namaz"a səsləyir, gah da "Şuşadan keçməyən yol Kəbəyə nə cür gedir?" – sirrinin dəhşətindən Allaha, Vətənə, hətta İblisin özünə də ağı deyir. Bəzənsə onu divanəlik həddinə çatdıran dərdinin dərmanını istəyir. (Sultan, 2012, s.7).

Ürəyimin yarasını sağaltmağa
Bir dərman var tapılmayır.
Belə dərman heç bir yerdə satılmayır
Mənim üçün "İlkinliyim", "Bütövlüyüm"
Ünvanında dərman gərək.
Bölünməmiş çaylar gərək,
Dağlar gərək, orman gərək.
İstəmirəm tikə-tikə, çərək-çərək,
Mənə hər şey tam halında
Mənə hər şey bütöv gərək.

Rüstəm Behrudi aktual hadisələrlə bağlı şeirlərində tarixi perspektivə malikdir. O, şeirlərində bugünkü hadisələrin tarixi dərinliyə malik olduğunu vurğulayır. R. Behrudinin "Qara Xəbər" poemasından götürdüyü aşağıdakı hissədə Cənubi Azərbaycanda Təbriz şəhərinin vəziyyətini təsvir edən şair, Səttarxan və Xiyabanini xatırladaraq bu vəziyyətin tarixi dərinliyini vurğulayır:

Açıldı sabahım qara xəbərlə
Bugün Səttarxansız, Xiyabanisiz
Təbriz bombalanır təyyarələrlə
Min ildir beləcə Təbriz deməkdən
Sözüm həşəm oldu, bu dilim yağır
Əzrail bombalar Təbrizə deyil
Qarımış, qartımış səbrimə yağır. (Qara Xəbər), (Behrudi, 2007, s.129).

Rüstəm Behrudinin tez-tez işıqlandırdığı mövzulardan biri də dindir. Şair din məfhumuna tənqidi prizmadan yanaşmaqla yanaşı, dindən mənfi mənada istifadə etməyə çalışan insanları və

toplumları şiddətlə tənqid edir. Rüstəm Behrudinin poeziyasında şamanizm inancından ilham tapmaq mümkündür. Şamanistlərin fikrincə, bütün dünya ruhlarla doludur. "Mən Ayrılıqlara Yandım" adlı şeirində şair ağacın, torpağın ruhundan bəhs edir. Bu vəziyyət qədim Türklərin torpaq-su ruhlarına bənzəyir. Sonralar onun şeirində günah, tövbə kimi dini anlayışlar da görünür:

Milyon ildir torpaq göyə boylanar,
çiçəklər günəşə.
Milyon ildir aşiqlər oda yanar,
Pərvanələr atəşə.
Mən ayrılıqlara yandım.
Dənizlər yosunsuz,
Balıqlar dənizsiz
yaşaya bilməz
Balıqlar dənizsiz yaşaya bilməz,
Məndə sənsiz. (Behrudi, 2007, s.281-282).

**Sonuç**

Rüstəm Behrudi Azərbaycan ədəbiyyatının ən mühüm şairlərindən biridir. Sənətçi poeziya macərasına 1980-ci illərdə başlayıb və Azərbaycanın müstəqillik uğrunda mübarizə apardığı, Sovet İttifaqından qopmağa çalışdığı, eyni zamanda Ermənistanın hücumları ilə üzləşdiyi bu mürəkkəb dövrdə Rüstəm Behrudi şeiri ilə Türk mədəniyyətinə, adət-ənənələrinə bağlanmağa üstünlük vermişdir. Rüstəm Behrudi, milli azadlıq mübarizəsi zamanı yazdığı şeirləri ilə xalq tərəfindən çox sevilmiş və bununla şair şöhrət qazanmışdır. Rüstəm Behrudinin poeziyası bilik və yığım şeiridir. Şair şeirlərinin mərkəzinə Türk tarixini və mədəniyyətini qoyur. Məsələn, Altay xalqında deyilən Yaradılış dastanını bilməyən oxucu Rüstəm Behrudinin şeirini başa düşə bilməyəcəkdir. Rüstəm Behrudinin bu sahədəki bilikləri onu digər şairlərdən fərqləndirən ən mühüm xüsusiyyət idi. Şairin Boraltan faciəsi ilə yazdığı şeir XX-ci əsrdə yüzdən çox Azərbaycanlı ziyalısının kominist rejim tərəfindən güllənərək Araz çayına atılmasına duyduğu bir kədəri ifadə edir. Bu gün hər bir ziyalı, Azərbaycan gənclərinə "20 yanvar", "Xocalı Soyqırımını" və.s hadisələri dediklərində "Boraltan"da olanları da deməlidir ki, tariximizi unutmayaq. Tarix unudulduğu vaxt yenidən təkrar olunur, çünki *tarix* elminin əvəzi olmayan tərbiyə və əxlaq məktəbi olduğunu qeyd etmək lazımdır. Rüstəm Behrudinin məşğul olduğu əsas mövzulardan biri də müstəqillikdir. Müstəqillik üçün edilməsi lazım olanları xatırladan şair, ölüm, vətən, həyat, yol, qan, azadlıq kimi sözlər tətqiqatda tez-tez xatırlanan digər mühüm adlardandır. Bu adlara ayrılıq, bəla, tənhalıq, qulluqçu

kimi müstəqilliyə qarşı duran sözləri də əlavə edə bilərik. Turan, Rüstəm Behrudinin ideal dünyasıdır. Bu ideala ən böyük maneə Türklər arasında olan fikir ayrılıqlarıdır. Rüstəm Behrudinin şeirləri milli ruh, milli azadlıq, Turançılıq ideyaları olduğu üçün bu fərqlərə son qoymaq, birliyi təmin etmək onun şeirinin əsas məsələsi olmuşdur.

**KAYNAKÇA**


GÖKDAĞ, B. Atsız; Muradov, Nazım. (2016). *Türklük Biliminde Bir Ömür Prof. Dr. Tofiq Haciyev.* Ankara; Akçağ Yayınları.

BEHRUDİ, Rüstem. (2007). *Selam Darağacı( Salam Dar Ağacı ) Azerbaycan Türkçesi.* Bakı; Azernşr.

AKPINAR, Yavuz. (1994). *Azeri Edebiyatı Araştırmaları.* İstanbul; Dergah Yayınları.

KÖKDEN, Yasin. (2019). Rüstəm Behrudi'nin Şiirlerinde Dil Ve Üslûp. (Yüksek Linsans Tezi). Kırıkkale Üniversitesi Sosyal Bilimler Enstitüsü. Kırklareli.

BEHRUDİ, R. Turan. (2010). *Yaddaşlara Yazın.* Bakı; Azernşr.

ƏLİYEVA, Aynurə. (2019). "Şaman nəvəsi – Rüstəm Behrudi". Türküstan. Giriş Tarixi: 14.05.2024. https://senet.az/bloq/saman-nevesi-rustem-behrudi-5563

RƏŞİDƏ ƏDALƏT qızı RƏŞİDLİ. (2020). Rüstəm Behrudi Poeziyasında Türkçülük. Xəzər Universiteti Humanitar, Təhsil Və Sosial Elmlər Fakültəsi. Bakı.

SULTANOVA, Xanım. (2016). Rüstəm Behrudi Yaradıcılığında Mifopoetik Ənənə. Giriş Tarixi: 17.05.2024. https://525.az/?name=xeber&news_id=56228#gsc.tab=0

SULTANOVA, Xanım. (2018). Mifik Obrazdan Poetik Obraza-Rüstəm Behrudi Yaradıcılığında Bozqurd. Giriş Tarixi: 17.05.2024. https://525.az/?name=xeber&news_id=104568https://525.az/?name=xeber&news_id=104568.

MAMMADALİYEV, Igbal. ( 2016). Uzaqların Adamı - Rüstəm Behrudi (Sənədli Film). Giriş Tarixi: 18.05.2024. https://www.youtube.com/watch?v=FZxFYnsSlII.